*ENI/2014/033-774 - Aİ və Azərbaycan arasında sazişlərə dəstək üzrə çərçivə proqramı*

# Avropa ölkələrində Əvvəlki Təhsilin Tanınmasının (ƏTT) müqayisəli təhlili

**Bakı - 2018**

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Layihə "*GOPA Consultants*"-ın rəhbərliyi altında Konsorsium tərəfindən həyata keçirilir

# Avropa ölkələrində
# Əvvəlki Təhsilin Tanınmasının (ƏTT)
# müqayisəli təhlili

# Mündəricat


İcmal ........ 4
Əvvəlki təlimin tanınması ilə bağlı milli yanaşma ........ 4
Tanınma ilə bağlı tədbirlər ........ 4
Tanınma fəaliyyətinin dərhal və uzun müddətli nəticələri ........ 6
Tanınma fəaliyyətindən istifadə edən şəxslər ........ 7
Əvvəlki təlimin tanınması fəaliyyətinin formalaşdırılması və həyata keçirilməsi ........ 10
Əsas xüsusiyyətlər: tanınmanın dörd mərhələsi ........ 10
Maraqlı tərəflərin tanınma prosesinə cəlb edilməsi ........ 10
İnformasiya, məsləhət və istiqamətin təmin edilməsi (İMİ) ........ 11
Milli kvalifikasiya sistemləri və çərçivələri ilə əlaqələr ........ 12
Maliyyələşdirmə ........ 14
Əvvəlki təlimin tanınması üçün alətlər və metodlar ........ 17

## İcmal

Bu hesabatın məqsədi Avropa ölkələrinin qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələrin tanınması (QFİTT) sahəsində təcrübəsini təqdim etməkdir. Hesabatda QFİTT sahəsində "CEDEFOP"-un Avropa ölkələri üzrə inventarından məlumatlar toplanaraq, istifadə edilir.

Səriştələrin tanınması fəaliyyətindən əmək bazarında tələb və təklifi bir-birinə daha düzgün uyğunlaşdırmaq, işçilər üçün bir işəgötürəndən asılılığı azaltmaqla, layiqli iş mühiti təmin etmək və sektorlar, regionlar və ölkələr arasında mobilliyi dəstəkləmək üçün bir alət kimi istifadə edilir. Burada məqsəd qeyri-formal və informal təlimin əmək bazarı və təhsil sistemində sosial baxımdan qəbul edilən olmasına nail olmaq və ömürboyu təhsil imkanlarına çıxışı təmin etməkdir.

Səriştələrin tanınması sosial inteqrasiya üçün bir alət olmaqla yanaşı, həm də prioritetlərin təyin edilməsində vacib aspekt kimi təqdim edilmişdir. Sosial ədalət və tanınma ilə bağlı ədəbiyyatı nəzərdən keçirdiyimiz zaman, Souto-Otero (2016) qeyd edir ki, bu fəaliyyət sosial cəhətdən həssas qrupların, xüsusən də aşağı kvalifikasiyaya malik şəxslərin bilik, bacarıq və səriştələrinin tanınması və iştirakının genişləndirilməsi əsasında sosial ədaləti təmin etmək potensialına malikdir. Fərdi inkişaf və yaxud təşəbbüslərin sınaqdan keçirilməsi üçün imkanların artırılması daha az rast gəlinən haldır.

## Əvvəlki təlimin tanınması ilə bağlı milli yanaşma

### Tanınma ilə bağlı tədbirlər

Xorvatiya istisna olmaqla, bütün Avropa ölkələrində təhsilin ən azı bir sektorunda tanınma ilə bağlı fəaliyyətlər mövcuddur. Qeyri-formal və informal təhsilin tanınması tədbirlərinin təşkili ilə bağlı milli yanaşmalar bir-birindən fərqlənir. Bəzi ölkələr konkret sektorlar üzərinə köklənərək, milli yanaşma tətbiq edirlər. Tanınma imkanları təhsilin müxtəlif sektorları üzrə mövcuddur və bu, əmək bazarı və yaxud üçüncü sektora da tətbiq edilə bilər[1].

Təhsil sektorunda tanınma fəaliyyətinin milli səviyyədə koordinasiyası üçün 32 ölkədə xüsusi bir qurum fəaliyyət göstərir. Bu hesabat məhz sözügedən ölkələr üzərində köklənəcəkdir.

Avropa ölkələrinin əksəriyyətində tanınma ilə bağlı milli yanaşma olaraq hüquqi çərçivə, strategiya və yaxud siyasi kurs kimi ölkə səviyyəsində tədbirlər həyata keçirilmişdir.

Müxtəlif sektorları özündə ehtiva edən tanınma strategiyalarının mövcudluğu ölkələri koordinasiya məqsədli sistemlər qurmağa sövq edir. Ümumilikdə 20 ölkə təhsil, əmək bazarı və üçüncü sektor arasında tanınma fəaliyyətini koordinasiya etmək üçün milli mexanizmlər yaratmışlar. Bu mexanizmlərdən biri də faydalı təcrübələri əlaqələndirmək və yaxud davamlılığı təşviq etmək üçün milli prinsipləri hazırlayan milli institutun yaradılması ola bilər. Əksər hallarda bu cür koordinasiya qurumları nazirlik səviyyəsində olur, məsələn Fransada tanınma ilə bağlı ümumi institusional çərçivə ömürboyu təhsil sahəsində səlahiyyətli olan nazirliyin öhdəlikləri sırasındadır (hazırda Əmək, Məşğulluq, Peşə Təlimi və Sosial Dialoq Nazirliyi). Bununla belə, digər ölkələr bu məqsədlə işçi qruplar yarada bilərlər, məsələn İspaniyada bu məqsədlə Nazirliklər arası Komissiya yaradılmışdır. İsveçdə tanınma üçün yeni milli nümayəndəlik yaradılmışdır ki,

---

[1] İqtisadiyyatın və yaxud cəmiyyətin qeyri-hökumət və qeyri-kommersiya tipli təşkilatları, yaxud assossasiyalarından, o cümlədən xeyriyyə təşkilatları, könüllü və icma qrupları, koperativlər və s.-dən ibarət hissəsi.

onun da məqsədi tanınma fəaliyyətini həm regional, həm də milli səviyyədə formalaşdırmaq istiqamətində işlərin koordinasiyalı icrasını izləmək, dəstəkləmək və tələb etməkdir.

Az sayda ölkədə isə tanınma fəaliyyətini regional və sektorlar səviyyəsində tədbirlərlə əlaqəli şəkildə koordinasiya etmək üçün milli mexanizmlər mövcuddur. Bu ölkələr dəqiq regional idarəçilik strukturlarına (İspaniya və yaxud İsveçrə) və yaxud desentralizasiya və təlim təmin etmək sahəsində güclü avtonomluğa (Danimarka və Norveç) malik olan ölkələrdir. Məsələn, Danimarkada tanınma təşəbbüslərinin həyata keçirilməsi əsaslı şəkildə mərkəzdən kənarlaşdırılmışdır; burada ənənə ondan ibarətdir ki, qanunvericilik özü keyfiyyətin təmin edilməsi, qiymətləndirmə və keyfiyyət sistemlərinin formalaşdırılması ilə əlaqədar təhsil institutlarının rol və öhdəliklərini təsvir edən çərçivəni təmin edir.

Bu ölkələrdən olan məlumatlar onu göstərir ki, tanınma daha çox təhsillə bağlı olan məsələdir. Davamlı Peşə Təhsili və Təlimi (DPTT), İPTT və yaşlıların təhsili ilə birgə şəkildə ən çox prioritetləşdirilən sektordur (18 ölkədə). Doqquz ölkədə isə bütün sektorlar bərabər diqqət mərkəzindədir.

### *Portuqaliya*

Portuqaliyada qeyri-formal və informal təlimin tanınması proseduru səriştələrin tanınması, təsdiqlənməsi və sertifikatlaşdırılması üçün nəzərdə tutulan "RVCC" milli sistemi (Portuqal dilində - Reconhecimento, Validação e Certificação de Competências) və ali təhsil (AT) müəssisələrində təhsilin akkreditasiyası vasitəsilə həyata keçirilir.

Qeyri-formal və informal təlimin tanınması proseduru "RVCC" milli sisteminə inteqrasiya edilmişdir. Bu proseslər unikaldır və Kvalifikasiya və PTT üzrə bütün Mərkəzlər tərəfindən hazırlanmışdır. Sözügedən tanınma prosesləri Mərkəzlər tərəfindən hazırlana bilər və bu qurumlar spesifik iqtisadi sahələrdə fəaliyyət göstərən müəssisələr və yaxud sektorlara aid təlim mərkəzləri ilə əlaqələndirilə bilər, hərçənd ki, bu prosesdə qeyri-formal və informal təlimin tanınma ilə bağlı fərqli alətlərdən istifadə ehtiva olunmur.

### *Norveç*

Norveçdə qeyri-formal və informal təlimin tanınması təhsil və təlimin bütün səviyyələrində mümkündür və modulların və ya tam kvalifikasiyaların əldə edilməsi üçün istifadə edilə bilər. Təhsil və təlimin hər bir səviyyəsi ilə bağlı qanun və qaydalar mövcuddur ki, bunlar da əvvəlki təlimin tanınması üçün ümumi zəmin formalaşdırır.

Tanınma ömürboyu təlim üzrə kompleks siyasi kursların bir hissəsi kimi təqdim edilmişdir. Həmin siyasi kurslar ilk dəfə ciddi şəkildə 1998-ci ilin Səriştələrlə bağlı İslahat haqqında Rəsmi Sənəd vasitəsilə irəli sürülmüş və yenidən 2009-cu ildə Təhsil Strategiyası ilə bağlı Yekun Sənəddə bir daha vurğulanmışdır.

İbtidai və orta təhsil və təlim üçün tanınma çərçivələrinin formalaşdırılması yaşlılar üçün orta təhsil və təlim səviyyəsini bitirmək (2000-ci ilin payızında), eləcə də 2002-ci ildə ibtidai təhsillə bağlı qanuni hüquqların tətbiq sürəti ilə müəyyən edilmişdir. Bu səviyyələrdə iştirak etmək və təhsili tamamlamaq kimi hüquqlar tələbələri tanınma imkanından pulsuz şəkildə yararlanmaq imkanı ilə təmin edir. Bundan başqa, 2001-ci ildən etibarən kifayət qədər formal kvalifikasiyalar olmadan da yaşlılar ali təhsil müəssisəsinə qəbul ola bilmək üçün əvvəlki təlimlərini qiymətləndirmədən keçirə bilərlər. Eyni zamanda ali təhsil müəssisələrinə əvvəlki təlimin qiymətləndirilməsi əsasında təlim proqramlarının müəyyən hissələrindən azad etmək səlahiyyəti verilmişdir. Orta məktəb sonrası peşə kolleclərinə qəbul olunmaq üçün "tanınma"nin tətbiqi 2003-cü ildə bu səviyyə üçün qəbul edilmiş orijinal qanunda öz əksini tapmışdır. Digər tərəfdən tanınma əsasında proqramların müəyyən hissələrindən azadetmə imkanı bu səviyyədə yalnız 2013-cü ildə təmin edilmişdir.

Norveçin tanınma sistemi bütün sektorlar üzrə müştərək prinsiplərə əsaslanır. Bu prinsiplərdən biri də ondan ibarətdir ki, tanınma prosesi könüllü və fərd üçün faydalı olmalıdır. Buna baxmayaraq, tanınma prosesində iştirakın könüllü olmasına baxmayaraq, hüquqi çərçivə şəxslərin tanıma prosesindən keçmək hüquqlarına zəmanət verir.

## Tanınma fəaliyyətinin dərhal və uzun müddətli nəticələri

Tanınma müxtəlif növ uzun müddətli nəticələrə yol aça bilər: burada məqsəd karyera və yaxud kvalifikasiyada irəliləyişə nail olmaq, yaxud kiminsə bacarıq və səriştələrinin siyahısını tutmaq ola bilər. Aşkar edilən faktlar göstərir ki, təhsil sektoru və əmək bazarında tanınma prosesinin ən çox rast gəlinən nəticələri kvalifikasiyaların və yaxud qismən kvalifikasiyaların təqdim edilməsidir. Üçüncü sektorda formal sektorda azadolmaların əldə edilməsi ən çox rast gəlinən nəticədir.

Təhsil sektoruna aid olan məlumatlar göstərir ki, tanınma ən çox qismən/tam kvalifikasiyaların verilməsi (30 ölkə), kreditlər (26 ölkə), azadolmalara nail olmaq (25 ölkə) və təhsil proqramlarından istifadə imkanları (25 ölkə) üçün istifadə edilir. 20 ölkədə modullar vasitəsilə qismən kvalifikasiyalar əldə etmək mümkündür. Tanınma prosesindən keçdikdən sonra təlim planlarının təmin edilməsi, təlim spesifikasiyaları 15  ölkədə mümkündür.

Təhsillə bağlı alt sektorlarda tanınmanın istifadə formalarında müəyyən fərqlər mövcuddur. Ali təhsil sahəsində tanınmadan istifadənin ən çox rast gəlinən halı kreditlərin əldə edilməsidir, lakin digər sektorlarda bunun çox yayılmış hal olduğunu demək olmaz. Azadolmalar da digər alt sektorlarla müqayisədə daha çox ali təhsil sahəsində rast gəlinir, modulların verilməsi isə DPTT-də tanınmanın ən çox bilinən nəticəsidir. Təlim spesifikasiyalarının hazırlanması da nisbətən İPTT və DPTT üçün xarakterikdir.

### *Norveç*

Orta təhsilin yuxarı pillələrində (universitetə - hazırlıq) Ümumi Fənlər Proqramında tanınma prosedurunun əsasında tam kvalifikasiya əldə etmək mümkündür. Orta ixtisas Peşə təhsilində bacarıqlı işçi kimi kvalifikasiyaların alınması və yaxud kvalifikasiyalı işçi sertifikatını əldə etmək üçün müvafiq yekun (ixtisas) imtahanı vermək məcburidir.

Ali Təhsil sahəsində tələbələr təhsil proqramının müəyyən hissələrindən azad oluna bilərlər. Diplom, o cümlədən Diploma Əlavədə müvafiq kurs və kreditlərin tanınma vasitəsilə əldə edildiyi göstəriləcəkdir. Orta ixtisas sonrası PTT-də tanınma əsasında modul və kurslardan azadolma imkanı 1 avqust, 2013-cü il qaydaları əsasında təqdim edilmişdir və bu cür prosedurlarla bağlı təcrübələr barədə sistemli hesabatlar mövcud deyildir.

İbtidai və yuxarı siniflərin təhsil və təlimində tanınmadan sonra kreditlərin və yaxud qismən kvalifikasiyaların verilməsi baxımından Təhsil haqqında Qanun tanınma vasitəsilə istənilən səviyyədə "Səriştə Sertifikatı" adlanan (kompetansebevis) qismən kvalifikasiya sertifikatını əldə etməyə imkan verir. Namizədlər tam ixtisas və yaxud ustalıq haqda sertifikat əldə etmək məqsədi ilə əlavə təhsil və təlimdən keçmək hüququna malikdirlər.

Səriştə Sertifikatı şəxsin orta ixtisas səviyyəsində təhsil proqramı çərçivəsində müəyyən məqsədlərə (təlim nəticələri) nail olduğunu tanımaq üçün təqdim edilir. Sertifikatlar səriştələrlə bağlı ayrıca bir dəlil kimi qəbul edilə bilər və məsələn növbəti təhsil kurslarında iştirak etmək və yaxud iş üçün müraciəti dəstəkləmək məqsədi ilə istifadə edilə bilər. Səriştələr üçün təqdim olunan bu yarım sertifikatlar əmək

bazarında peşə ilə bağlı tələblərin bir hissəsini qarşılayan sənəd kimi tanınır. Buna nümunə kimi tam təlim keçmiş aşpazın yarım-səriştəsi kimi səhər yeməklərinin hazırlanmasına görə sertifikatı göstərmək olar.

Səriştələrin tanınması yolu ilə də təhsildən istifadə imkanları mümkündür - şəxs (sənədlər və yaxud başqa vasitələrlə) müəyyən təhsil və təlim səviyyəsinə qəbul olunmaq üçün tələb olunan bacarıq və səriştələrə malik olduğunu göstərmək iqtidarında olmalıdır.

*Portuqaliya*

Şəxsin həyat/karyera yüksəlişinin müxtəlif səviyyələrində qeyri-formal və informal təlim vasitəsilə əldə etdiyi səriştələrin tanınması vasitəsilə sertifikatlaşdırılması mümkündür. Məsələn, şəxs qeyri-formal və informal təlim vasitəsilə əldə etdiyi səriştələrə görə müəyyən sertifikat əldə etmişdir. Əgər həmin bu şəxs yeni bilik, bacarıq və səriştələr əldə etməyə davam edərsə, o, sertifikatlaşmanın yeni səviyyəsinə keçmək məqsədi ilə bu yeni təlim nəticələrinin tanınması üçün müraciət edə bilər (MKÇ-nin 4-cü səviyyəsinə kimi).

## Tanınma fəaliyyətindən istifadə edən şəxslər

Tanınma prosesində kimin faktiki istifadəçi, kimin isə benefisiar olduğunu dəqiq demək çətin məsələdir. "CEDEFOP"-un təqdim etdiyi məlumatlardan görünür ki, təhsil sektorunda tanınma təşəbbüsləri, bir qayda olaraq, yaşlı təhsilalanları (13 ölkə), aşağı kvalifikasiyalı şəxsləri (12 ölkə), işçiləri (10 ölkə) və aşağı bacarıqlara malik iş axtaranları (doqquz ölkə) hədəf kimi götürür. Bunun əksinə, üçüncü sektorda tanınma təşəbbüsləri üçün ən çox rast gəlinən hədəf qrup "könüllülər" (14 ölkə), bunun ardınca gənclər (11 ölkə), yaşlı təhsilalanlar (doqquz ölkə), işsizlik riski daşıyan şəxslər (yeddi ölkə) və işaxtaranlardır (yeddi ölkə).

Hədəf istifadəçilər və əsas istifadəçilər (bunun mümkün olduğu bir neçə ölkədə) arasında münasibətə yaxından nəzər saldığımız zaman məlumatlar bu ikisi arasında kiçik korrelyasiyanın olduğunu göstərir. Yalnız Finlandiya, Polşa və İsveçrədə tanınmadan istifadə edənlər əksər təhsil səviyyələrində hədəf əhali ilə uyğun gəlir. Bu da hədəf qrupun hədəf kimi götürülən təşəbbüsləri, ehtiyacları və yaxud ölçüsünün effektiv olması ilə əlaqədar ola bilər.

11 Avropa ölkəsi tanınma prosedurları üçün müraciət edən iştirakçıların sayında artımın olduğunu bildirmişlər. Tanınma prosedurları üçün başlayan/müraciət edən iştirakçıların sayında azalma Belçika-Flaman (ali təhsil) İcması, Danimarka (yaşlıların təhsili), Fransa (İPTT, DPTT, ali təhsil) və Rumınyada (DPTT) müşahidə edilmişdir. Belçika-Flaman İcmasında azalmanın bir səbəbi də bu prosedurun çox bahalı hesab edilməsi və hazırda nəzərdən keçirilməkdə olması səbəbindən müəyyən müəssisələrin reklam fəaliyyətlərini azaltmasıdır. Fransadan əldə edilən məlumatlar göstərir ki, "VAE" (səriştələrin tanınması) istər vaxt, istərsə də səylər baxımından namizədlər üçün yorucu və bəzi hallarda uzun davam edən prosedur olaraq qalır ki, bu da ərizələr qiymətləndirilmədən öncə onların prosesdən çıxmaları ilə nəticələnir.




*Mənbə: 2016-cı il Avropa Ölkələri haqda İcmal Məlumatların İnventarı*

### *Hollandiya*

"Ervaringscertificaten"-in sayı 2007-ci ildə 9900-dən 2008-ci ildə 12500, 2009-cu ildə isə 15700-ə yüksəlmişdir. Bu da o deməkdir ki, 2007-2009-cu illər ərzində "Ervaringscertificaten" ilə təltif olunan şəxslərin sayı 60%-ə kimi artmışdır. "Ervaringscertificaten" ilə bağlı tələb özünün ən yüksək nöqtəsinə 2010-cu ildə 22300 EVC-prosedurları sayəsində çatmışdır. Bu say 2011-ci ildə aşağı düşərək 17900 nəfər olmuşdur. 2011-ci ildə tanınma üçün müraciət edənlərin əksəriyyəti, təxminən 65%-i sahə, sektor və kvalifikasiyalar baxımından peşə təhsili (MBO) səviyyəsində olan şəxslər olmuşdur. Bu kvalifikasiyalar sektor daxilində formalaşıb, akkreditasiyadan keçsə də, milli kvalifikasiya strukturunun (maliyyələşdirilən) tərkibinə daxil deyil. PTT və PTT ilə bağlı təlim (həmçinin MBO-səviyyələri və yaxud Hollandiya KÇ-nin 1-4 səviyyələri) səviyyəsində əvvəlki təlimin tanınması 25%, tətbiqi fənlər üzrə universitetlərdə isə bu tanınma 2011-ci ildə 10% əhatə etmişdir.

2013-cü ildən etibarən "iki-istiqamətli-strategiya"nın qəbulundan sonra Əvvəlki Təlimin Tanınması üzrə qeydiyyatdan keçmiş mütəxəssislər təxminən 17000 tanınma prosedurunun həyata keçirilməsi barədə məlumat vermişlər. Bu rəqəm 2015-ci ildə 9000-ə düşmüşdür (KC EVC, 2015-ci il). 2016-cı ildən etibarən bu rəqəmlər əmək bazarı istiqamətində ƏTT-nin istifadəsini təmsil edir ki, burada da "ervaringscertificaat" insanların təlim nəticələrinin qiymətləndirilməsi üçün ən əsas metod hesab edilir.

### *Portuqaliya*

Təhsil və Elm üzrə Baş Katiblikdən əldə edilən məlumatlar göstərir ki, 2013/2014-cü illərdə 1-ci dövrə üzrə diplom üçün 435 təhsilalan, 2-ci dövrə üçün 999, 3-cü dövrə üçün 499 və orta ixtisas təhsili üçün 350 nəfər siyahıya alınmışdır. 2014-2015-ci illərdə 1-ci dövrə üzrə diplom üçün 543, 2-ci dövrə üçün 1247, 3-cü dövrə üçün 2878 və orta təhsil üçün 2902 nəfər siyahıya alınmışdır. Bu səbəbdən də az da olsa, bu rəqəmlər artımın olduğunu göstərir.

Akkreditasiyada ali təhsil tendensiyaları ilə bağlı mərkəzi məlumatlar mövcud deyil. Setubal Politexnik İnstitutunda 2009-2016-cı illər ərzində 159 müraciət daxil olmuş və 2011/2012-ci illərdə müvəffəqiyyət dərəcəsi təxminən 95% ətrafında olmuşdur.

## Əvvəlki təlimin tanınması fəaliyyətinin formalaşdırılması və həyata keçirilməsi

### Əsas xüsusiyyətlər: tanınmanın dörd mərhələsi

Tanınmanın əsas dörd mərhələsi identifikasiya, sənədləşdirmə, qiymətləndirmə və sertifikatlaşdırmadır ki, bunlar da harada əldə etməsindən asılı olmayaraq, bir şəxsin malik olduğu bilik, bacarıq və səriştələrin tam spektrini vizuallaşdırır və dəyərləndirir. Tanınmanın dörd mərhələsi həm də prosesi fərdi tələblərlə tez uzlaşan və daha çevik etməsi səbəbindən də vacib əhəmiyyət kəsb edir.

Bu dörd mərhələnin hamısı bütöv sektorlar üzrə istifadə edilsələr də, fərqli kombinasiyalar şəklində tətbiq olunurlar. Təhsil və əmək bazarına gəldikdə isə tanınmanın bütün dörd mərhələsi geniş şəkildə istifadə edilməkdədir.

Mərhələləri və onların tərifləri və qarşılıqlı əlaqələrini yerli şərtlərə uyğunlaşdırmaq mümkündür. Məsələn, İsveçrədə əvvəlki təlimin tanınması beş mərhələdən ibarətdir: informasiya və məlumatlandırma, özünü-qiymətləndirmə, qiymətləndirmə, akkreditasiya və sertifikatlaşdırma. Finlandiyada isə səriştə əsaslı kvalifikasiyalar (SƏK-lər) Yaşlıların Peşə Təhsili Qanunu ilə tənzimlənir ki, bu sənəd də tanınma prosesinin üç mərhələsini təyin edir: müraciət mərhələsi, peşə bacarıqlarının tamamlanması mərhələsi və biliklərin əldə edilmə/sertifikatlaşdırma mərhələsi. Bütün proses boyunca sənədləşdirmə həyata keçirilir.

Avropanın səkkiz ölkəsində sertifikatlaşdırma mərhələsi çıxarılmaqla, müəyyənləşdirmə, sənədləşdirmə və qiymətləndirmə mərhələləri birgə şəkildə istifadə edilir. Bu, xüsusən də yaşlıların təhsili səviyyəsində müəssisələrin formal sertifikatlar vermək səlahiyyətli olmadığı təqdirdə, yaxud ali təhsil səviyyəsində əvvəlki biliklərin tanınması nəticəsində formal təhsildən istifadə etmək imkanı yarandığı halda baş verə bilər.

### Maraqlı tərəflərin tanınma prosesinə cəlb edilməsi

Sistemdə inam yaratmaq və tanınmanın nəticələrinin cəmiyyətdə qəbul olunmasına nail olmaq üçün maraqlı tərəflərin prosesdə geniş iştirakı vacib amildir.

32 Avropa ölkəsində təhsil sektorunda ən azı bir alt sektorda əvvəlki təlimin tanınması fəaliyyətinin əlaqələndirilməsi səlahiyyətlərini icra edən ayrıca bir qurum fəaliyyət göstərir. Koordinasiya qurumları bir çox sayda fərqli öhdəlikləri icra edirlər: təhsilverənlər üçün istiqamət/təlimlərin təşkil edilməsi; əvvəlki təlimin tanınması ilə bağlı milli strategiyaların hazırlanması/həyata keçirilməsinin təmin edilməsi və milli səviyyədə məlumatların toplanması/monitorinq edilməsi. Tanınma tədbirlərinin icra olunduğu ümumilikdə 17 ölkədə əvvəlki təlimlərin tanındığı bütün alt sektorlar üzrə bu fəaliyyətə görə cavabdeh olan milli qurumlar mövcuddur. Digər 15 ölkədə isə milli qurum mövcud olsa da, bu qurum tanınma tədbirlərinin mövcud olduğu bütün təhsil sektorlarının hamısına görə heç də həmişə cavabdehlik daşımır.

Fərqli koordinasiya modelləri mövcuddur: bəzi ölkələrdə tanınma bir iştirakçı tərəfindən koordinə edilirsə, digərlərində koordinasiyanın həvalə edilmiş formaları icra edilməkdədir. Altı ölkədə tanınma fəaliyyətinin tətbiq olunduğu təhsil sektorlarında milli və regional koordinasiya tədbirləri qarışıq şəkildə icra edilir: Danimarka, Finlandiya, Hollandiya, İspaniya, İsveç və İsveçrə.

Müxtəlif qurumlar və maraqlı tərəflər tanınmanın fərqli aspektləri ilə bağlı öhdəliklərə malikdirlər: bu da milli strategiyaların hazırlanmasından tutmuş, standartların planlaşdırılması, məsləhətlərin verilməsi və qiymətləndirmə ilə bağlı istiqamətin verilməsinə kimi dəyişə bilər. Məsələn, Norveçin Ömürboyu Təlim Agentliyi olan "Vox" Norveçin QFİTT-lə bağlı yanaşmasının milli təsvirini yaradıb saxlamaq öhdəliyinə malikdir.

Təhsil sektoru daxilində tanınma tədbirlərinin icrası ilə bağlı əsas iştirakçılar hökumət qurumları, təlim təmin edənlər, o cümlədən agentliklər kimi milli təşkilatlardır. Bu cür maraqlı tərəflər tanınma tədbirlərinin fəaliyyəti ilə əlaqədar olan funksiyaların icrasında müxtəlif rol və öhdəliklər vasitəsilə müəyyən dərəcədə iştirak edirlər. Heç də bütün ölkələrdə müvafiq qurumlar olmadığına görə, bu cür prosesdə dövlət təşkilatlarının daha az cəlb olunması başa düşüləndir. Əksər maraqlı tərəflər agahlığın yaradılması və məlumat və istiqamətin təmin edilməsi prosesində iştirak edirlər. Bununla belə, işəgötürənlər, ticarət palataları və həmkarlar ittifaqları daha az fəallıq göstərirlər; onların təhsildə tanınma təşəbbüslərinə cəlb edilməsi üçün daha çox iş görülməlidir. Onlar daha çox standartların yaradılmasında iştirak edirlər.

## İnformasiya, məsləhət və istiqamətin təmin edilməsi (İMİ)

Tanınma tədbirlərinin icra olunduğu bütün ölkələrdə namizədlər İMİ ilə bağlı müddəanı qarşılamalıdırlar. Lakin, bu, heç də bütün təhsil sektorlarında mövcud deyil. Məsələn, Danimarkada ali təhsildə İMİ-nin təmin edilməsi fərdi qurum tərəfindən qərarlaşdırılır və buna görə də bunun milli mövqeyini təsdiq etmək mümkün deyil. Eynilə, Finlandiyada yaşlıların təhsilində, yaşlıların təhsili ilə bağlı olan liberal təşkilatlar fərqli sistemlərə malikdirlər: bəzi təşkilatlarda İMİ mövcud olduğu halda, digərlərində mövcud deyildir.

Sektor üzrə məlumatların üzərində aparılan təhlil göstərir ki, İMİ-nin təmin edilməsi daha çox İPTT (96%, 26 ölkə), DPTT (82%, 23 ölkə) və ali təhsil (81%, 22 ölkə) səviyyələrində rast gəlinir. Orta təhsil (69%, 11ölkə) və yaşlıların təhsili (74%, 17 ölkə) üçün bu məqam nisbətən az icra olunur.

Namizədlər üçün İMİ təmin edən ölkələrdə bu fəaliyyət üç aspektə bölünə bilər: tanınma prosesinin özü, QFİTT-in qiymətləndirilməsi; nəticələr və faydalar.

## Milli kvalifikasiya sistemləri və çərçivələri ilə əlaqələr

İtaliya və İspaniya kimi bir çox sayda ölkə hələ də milli kvalifikasiya çərçivəsinin hazırlanması üzərində işləməkdədirlər. Təhsil sektoru daxilində tanınma vasitəsilə təsdiq edilən təlim nəticəsi formal təhsilə çıxış əldə etmək, yaxud ən azından modul/qismən kvalifikasiya əldə etmək, yaxud MKÇ üzrə formal təhsildə kredit əldə etmək üçün ölkələrin 78%-də istifadə edilə bilər; qeyd etdiyimiz ölkələrdən yalnız 35%-də 2014-cü ildə bu mümkün olmuşdur.

13 Avropa ölkəsində qeyri-formal və informal vasitələrlə əldə edilmiş təlim MKÇ üzrə istənilən kvalifikasiyanı əldə etmək üçün istifadə edilə bilər, Fransa, Hollandiya, Polşa, Portuqaliya və Birləşmiş Krallıq bu ölkələrin sırasındadır.

22 Avropa ölkəsində isə qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələr MKÇ üzrə yarı-kvalifikasiyalar əldə etmək üçün istifadə edilə bilər, Belçika, İsveçrə, Danimarka və Norveç bu ölkələrdəndir.

17 Avropa ölkəsində qeyri-formal və informal vasitələrlə əldə edilmiş təlim MKÇ üzrə kreditlər əldə etmək üçün istifadə edilə bilər, Danimarka, Hollandiya, Norveç, Portuqaliya və Şotlandiya və Uels bu ölkələrin sırasındadır.

### *Portuqaliya*

Ümumi təhsilin tanınma prosedurları və PTT--də "RVCC" sistemi Milli Kvalifikasiyalar Çərçivəsi və artıq bu hesabatda qeyd edildiyi kimi Avropanın Kvalifikasiyalar Çərçivəsinə uyğundur. Ümumi təhsilin tanınma prosedurları və PTT-də "RVCC" sistemi Milli Kvalifikasiyalar Çərçivəsi və Avropanın Kvalifikasiyalar Çərçivəsinin müxtəlif səviyyələri ilə əlaqədar olan məktəb səviyyəsində və yaxud peşəkar səviyyədə sertifikatlaşmaya imkan verir. Buna görə də qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələr hüquqi əsaslara müvafiq olaraq məktəb sertifikatı və yaxud peşəkar sertifikatların əldə edilməsi üçün istifadə edilə bilər və o cümlədən də milli təhsil və təlim sistemində ehtiva olunan formal təlimdən də istifadə etmək imkanı verə bilər. Ümumi təhsil və PTT üzrə RVCC vasitəsilə əldə edilmiş diplomlar eyni rəsmi dəyərə malikdir.

Mövcud tanınma prosedurları Milli Kvalifikasiyalar Çərçivəsində (və Avropa Kvalifikasiyalar Çərçivəsində) göstərilən meyarlara əsaslanır .

Portuqaliyada məktəb səviyyəsində sertifikatların verilməsi məcburi təhsilə uyğun gələn sıralamada 1-ci (6 il məktəbdə təhsil), 2-ci (9 il məktəbdə təhsil), 3-cü (12 il məktəbdə təhsil) və 4-cü (12 il məktəbdə təhsil və peşə sertifikatı) səviyyələrə uyğun gəlir.

Aşağıdakı səviyyələr ali təhsil pillələri ilə əlaqədardır: səviyyə 5 (orta təhsildən sonra, Peşəkar Ali Texniki Kurslar olduğu halda), səviyyə 6 (Alimlik dərəcəsi) və 7 (Magistratura) - bu halda, artıq yuxarıda qeyd edildiyi kimi qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələrin tanınması ilə bağlı proseslər bu formalaşma proqramlarının tədris planları ilə uyğun olmalıdır və səviyyə 8 (Doktorantura).

### *Standartlar*

Təlim nəticələrini təyin etmək üçün standartlar çox zaman QFİTT-də əsas hesab edilir. Belə iddia edilirdi ki, "bu stantardlar zəif təyin edilərək, geniş kütlə tərəfindən qəbul edilmədiyi hallarda, kvalifikasiya qazanmış şəxs üçün bu kvalifikasiyaların faydalı olacağı ehtimal olunmur, çünki onlar sosial olaraq tanınmırlar. Standartlar həm də heç bir sosial və yaxud texniki əsaas olmadan da təyin edilə bilər və bu da kvalifikasiyanı sosial dəyərlərdən məhrum edəcəkdir" (İƏİT, 2010, səh 37).

Avropa ölkələrinin əksəriyyəti QFİTT üçün formal təhsildə istifadə edilən eyni standartlardan istifadə edir. İPTT sahəsində 21 ölkə tanınma üçün formal təhsil istifadə edilən eyni standartlardan istifadə edir.

### *Sertifikatlaşdırma*

Ümumilikdə 23 Avropa ölkəsinin ən azı bir alt sektorunda tanınma nəticəsində əldə edilən sertifikat formal təhsil vasitəsilə əldə edilən sertifikatdan fərqləndirilə bilməz. Bununla belə, tanınma fəaliyyətlərinin icra edildiyi 35 ölkədən 22-sində ən azı bir təhsil sektorunda sertifikatın məhz QFİTT vasitəsilə əldə edildiyini bilmək mümkündür. Əsas etibarilə təqdim edilən dərəcələr və yaxud tamamlama üçün vaxtın təqdim olunma tərzindəki fərqlər sayəsində serfitikatın QFİTT vasitəsilə alındığını bilmək mümkündür.

## Maliyyələşdirmə

"CEDEFOP" Avropa ölkələrində qeyri-formal və informal üsullarla əldə edilmiş səriştələrin tanınması üçün beş fərqli maliyyə mənbəyi təyin etmişdir. Bu da mütləq şəkildə tam olaraq bütün ölkələrə deyil, ölkələrə məxsus olan təhsil sektorlarına şamil edilir. Məsələn, ali təhsil müəssisələrinin avtonom olma xüsusiyyətindən irəli gələrək ali təhsil sektorunun özünəməxsus maliyyə mənbələri vardır.

Təyin edilmiş maliyyə mənbələri aşağıdakılardır:

(a) milli mənbələrdən ayrlımış dövlət vəsaitləri;
(b) dövlətə məxsus, lakin sırf tanınma üçün ayrılmayan vəsaitlər;
(c) Aİ və layihə vəsaitləri;
(d) dövlət və özəl sektorun qarışıq formada maliyyə dəstəyi;
(e) fərdi təhsilalanların özündən tutulan xidmət haqları.

Dövlət maliyyəsi tanınma üçün ən çox yayılmış maliyyə mənbəyidir, bunun ardınca isə təhsilalanlardan tutulan xidmət haqları gəlir. Bununla belə, çox az sayda ölkədə vahid maliyyə mənbəyi mövcuddur, əksəriyyət çox sayda mənbələrdən istifadə edir.




*Mənbə: 2016-cı il Avropa Ölkələri haqda İcmal Məlumatların İnventarı*

Şəkildən də göründüyü kimi dövlət maliyyəsi fərdi şəxslərdən tutulan xidmət haqlarından öndə gələn ən çox yayılmış maliyyə mənbədir. Bu da o deməkdir ki, əksər ölkələrdə tanınma prosedurları ilə bağlı bəzi və yaxud bütün xərclərin xidmət haqları şəxslərdən tələb olunur. Xidmət haqları da tanınma prosedurlarının faktiki xərcləri və ümumilikdə maliyyə çərçivəsindən asılı olaraq əsaslı şəkildə bir-birindən fərqlənir. Bəzi hallarda yalnız inzibati xərcləri qarşılamaq tələb oluna bilər, digər xərclər isə Finlandiyada olduğu kimi dövlət vəsaitləri ilə qarşılanır. Başqa hallarda isə təhsilalanın verdiyi xidmət haqları nisbətən yüksək ola bilər, buna da səbəb tanınmanın heç bir elementi üçün heç bir dövlət vəsaitinin olmaması, yaxud da məhdud olması ola bilər.

Aşağıda biz fərqli maliyyələşmə təcrübələrinə malik ölkələri təqdim edirik.

### *İslandiya*

Dövlətin təyin etdiyi vəsaitlər tanınma xidmətini təmin edənlərə layihə əsasında təxris edilir. Maliyyə tanınma layihələri və karyerda istiqamətin təmin edilməsi üçün Təhsil və Təlim Fondu vasitəsilə təmin edilir ki, bu da çox az formal təhsilə malik insanlar üçün təxris edilir (Yaşlıların Təhsili Qanunu çərçivəsində). 2007-ci ildən etibarən maliyyə təmin edilməyə başlamışdır. Akkreditasiyadan keçmiş ÖBT mərkəzləri hər il maliyyə təminatı üçün müraciət edə bilərlər və ETSC (Təhsil və Təlim Xidməti Mərkəzi) mərkəzlərlə müqavilə bağlayır və spesifik layihələr və karyeraya rəhbərlik xidmətləri üçün maliyyə vəsiatləri ayırır. Ümumi büdcə tədricən artırılmışdır. 2014-cü ildə tanınma fəaliyyətləri üçün ümumi büdcə 707452 avro olmuşdur. 2015-ci ildə isə bu büdcə 890610 avro təşkil etmişdir. Maliyyə təminatı həm də səriştələrin tanınması fəaliyyətində karyera istiqamətinin verilməsi üçün də təmin edilir, bu da "ETSC"-nin hədəf qrupuna ümumilikdə karyera məsləhət xidmətləri üçün təqdim edilmiş bütöv büdcənin bir hissəsidir.

### *Portuqaliya*

Kvalifikasiya Mərkəzləri və dövlət sisteminə məxsus olan Peşə Məktəbləri üçün bu yaxınlarda Avropa Sosial Fondu - "Programa Operacional Capital Humano (85 %)" - vasitəsilə maliyyə dəstəyi təmin edilmişdir - əsasən Şimal, Mərkəz və Alentejo regionlarında yerləşən Mərkəzlər diqqət mərkəzindədir - bu büdcə növbəti beş il üçün (2015-2019-cu illər) ümumi dövlət büdcəsindən (15%) ayrılmışdır. Lisabon və Alqarve ərazilərində məktəb və təlim mərkəzlərində yerləşən Mərkəzlər əsasən Dövlət tərəfindən maliyyələşir və dövlətin maliyyələşdirmədiyi və maliyyələşmə ehtiyacı olan peşə məktəblərini müəyyən etmək mümkündür.

Tanınma, təsdiqetmə və sertifikatlaşdırma yaşlı təhsilalanlar üçün ödənişsiz prosesdir. Özəl Mərkəzlərə gəldikdə isə bu cür Mərkəzlər səriştələrin tanınması, təsdiqlənməsi və sertifikatlaşdırılması ilə bağlı xərcləri qarşılamaq üçün maddi vəsait tapmalıdırlar.

Ali Təhsil müəssisələri avtonomdur və onlar qiymətləndirmə prosesləri ilə bağlı özlərinin prosedur və xidmət haqlarını təyin edə bilərlər. Elə müəssisələr vardır ki, burada təhsilalanlar sabit təyin edilmiş məbləğin əsasında ödəniş etməklə yanaşı, əlavə olaraq akkreditasiya üçün tələb olunan kurikulum vahidlərinin sayından asılı olaraq dəyişən məbləği də ödəyirlər. Məsələn, Lissabon Universitetində təhsilalanlar tələb olunan kreditlərin sayına uyğun olaraq xidmət haqqı ödəyirlər ki, bu da maksimum 250 avrodur, "Setúbal" Politexnik İnsitutunda isə tələbələr prosesə görə 30 avro, üstəgəl tələb olunan hər bir kurikulum vahidinə görə 10 avro ödəyirlər.

### *Hollandiya*

Hollandiyada səriştələrin tanınması kommersiya fəaliyyəti kimi hesab edilir və fiziki şəxslər və yaxud özəl sektora məxsus hüquqi şəxslər tərəfindən verilmiş xidmət haqları əsasında maliyyələşir.

Əvvəlki təlimin tanınması fəaliyyətinin ya təhsil, ya da əmək bazarı istiqaməti kimi hansı kontekstdə tətbiq edilməsindən asılı olaraq, bu fəaliyyət başqa-başqa yollarla, fərqli maraqlı tərəflər tərəfindən maliyyələşir:

İşçilər

Əvvəlki təlimin tanınması fəaliyyəti ayrı-ayrı işəgötürənlər və Sektorda mövcud olan Təlim və İnkişaf Fondları vasitəsilə maliyyələşdirilir. ƏTT-ni özlərinin insan resurslarının idarəedilməsi fəaliyyətlərinə daxil etmiş nisbətən böyük şirkətlər (500-dəən çox işçiyə malik) ƏTT-nin icrasını özləri maliyyələşdirirlər. Sektoru idarə edən bu cür modelə uyğun gələn nümunə "A+O Fonds Gemeenten" (Şəhər işçiləri üçün təlim

fondu) tərəfindən təklif edilir. Sektorda ƏTT Sertifikatını əldə etmək üçün xərclər 700-1500 avro arasında dəyişir.

Bu xərclərin bir qismi işəgötürən üçün vergi tətbiq olunan xərclərdir; bununla yanaşı, ƏTT karyera istiqamətli trayektoriyanın bir hissəsini təşkil etdiyi zaman Fond hər bir işçi üçün 1000 avro məbləği qarşılayır, bir şərtlə ki, işçi son üç il ərzində oxşar trayektoriyadan keçmiş olmasın. 2013-cü ildə hökumət və sosial tərəfdaşlar müştərək sektor-yanaşma ilə bağlı razılığa gəldilər. Hökumət qarşıda gələn iki il ərzində 300 milyon avro illik büdcə ilə konkret bir sektorun bərpası üçün sektor planlarını həm-maliyyələşdirəcəkdir. Ümumilikdə, büdcə üçün bu 2014-2015-ci illər ərzində 600 milyon avronun birgə maliyyələşdirilməsi deməkdir. Bu büdcənin ƏTT strategiyalarının daha da inkişaf etdirilməsi və həyata keçirilməsi üçün hansı həddə kimi istifadə edilməsi məsələsi sektorların hazırlamış olduqları planlardan asılıdır. Ümumilikdə, bunu demək olar ki, ƏTT "şəxsi portfel və sektor daxilində mövcud və gələcək təyinat arasında körpü" kimi ümumi qəbul edilən rolundan faydalanacaqdır.

İşaxtaranlar

2009-cu ildə hökumət tərəfindən atılan müvəqqəti addım işaxtaranların ƏTT-dən istifadəsini dəstəkləyir. İqtisadi böhran səbəbindən ixtisar etməli olan müəssisə rəhbərləri aidiyyəti işçilərə "Ervaringscertificaat" və yaxud "Ervaringsprofiel" prosedurunu təklif edə bilərlər. Bu sxem üç fərqli spesifik qrupu hədəf olararq götürür: başlanğıc kvalifikasiyası olmayan gənc işsiz şəxslər, işsizlər və işini itirmək riskinə malik məşğul insanlar. Gənc işsizlər üçün, yalnız 2-ci Səviyyədə peşə kvalifikasiyasına malik olmayan şəxslər seçilə bilər. Digər iki qrup isə əmək bazarında öz mobilliklərini dəstəkləmək məqsədi ilə HBO səviyyəsinə kimi kvalifikasiyalardan istifadə etmək üçün bu tədbirdən istifadə edə bilər. Bu prosedur üçün nəzərdə tutulan xərclər məşğulluq agentləri, "UWV" ("İşçilərin Sığorta Agentliyi") tərəfindən subsidiyalaşdırılır. "Ervaringsprofiel" (Təcrübə Profili) üçün məbləğ  600 avro, "Ervaringscertificaat" üçün isə 1300 avro ilə məhdudlaşır. Şirkətdə işçilərin sayından asılı olaraq xərclərin yarısı (25 nəfərdən çox işçi), yaxud bütün xərclər (25 nəfərdən az işçi) subsidiyalaşdırılır.

Təlim kontekstində ƏTT

2015-ci ildən etibarən "EVS" təhsilin bir hissəsini təşkil edir və PTT məktəbləri (ROC-lar) və tətbiqi elmlər üzrə universitetlər üçün proqramların hazırlanması zamanı nəzərdə tutulan azadolmaların əldə edilməsi üçün istifadə edilir. Bundan başqa, "Open University" özünün bəzi proqramlarında "ƏTT" təklif edir. Bəzi PTT məktəbləri və universitetlər akkreditasiyadan keçmiş "ƏTT" qurumları kimi lisenziyaya malikdirlər.

Ali təhsil müəssisələri üçün (istər dövlət, istərsə də özəl) yaşlıların təhsili proqramı üçün təcrübə imkanı mövcuddur. Proqramlara (bakalavr/magistr səviyyələrində) çevik, modullaşdırılmış və qarışıq təlim təklif etmək lazımdır və onlar tanınma aləti ilə inteqrasiya etməlidirlər. 32-dən çox ali təhsil müəssisəsi bu maliyyələşmə imkanı üçün müraciət etmiş və nəticədə 20 ərizə yaşlıların təhsili üçün 500-dən çox proqramın çevik şəklə salınması məqsədi ilə təsdiq edilmişdir.

ƏTT vasitəsilə kvalifikasiyalar əldə etmək və azadolmalardan yararlanmaq üçün bu cür imkanı təhsilalanlara təklif edən təhsil müəssisələri bu fəaliyyəti öz proseslərinə inteqrasiya etməlidirlər. İnstitut bunu özü təklif etdiyi halda namizədin ƏTT üçün öz maliyyə dəstəyini təmin etməsinə mütləq şəkildə ehtiyac qalmır - bu fəaliyyət təhsil təklifinə inteqrasiya edilməlidir.

## Əvvəlki təlimin tanınması üçün alətlər və metodlar

Tanınma üçün tətbiq edilən alətlər bu prosesin etibarlılığı, obyektivliyi, qanunauyğunluğu və məqbulluğunu nümayiş etdirmək üçün əsas amillərdir. Sənədləşdirmə mərhələsi üçün portfellər ən çox qəbul olunan metodologiya kimi müəyyən edilmişdir, bundan sonra isə deklarativ metodlar və işdən çıxarış edilən simulyasiyalar/dəlillər gəlir. Namizədin bacarıq və səriştələri ilə bağlı dəlil əldə etmək üçün ən çox istifadə edilən metodlar portfellər, metodların birgə forması, testlər və imtahanlardır.

Metodların birgə forması və portfellər 26 Avropa ölkəsində, test və imtahanlar 24 ölkədə, deklarativ metod 23, müsahibələr, debatlar və dialoqlar 21, işdən çıxarılan dəlil 15, müşahidə və simulyasiya 9 və üçüncü tərəfin hesabatları 7 ölkədə istifadə edilir.

Portfellər formal təhsillə müqayisədə tanınma sahəsində daha çox gözə çarpır. "Metodların birgə forması"nın geniş yayılması da onu göstərir ki, müxtəlif qiymətləndirmə metodlarından alınmış trianqulyasiyaya əsaslanan (qiymətləndirmənin) "qızıl standart" tanınmada çox tez-tez istifadə edilir.

Standart alətlər proseslərə istiqamət verə bilər, lakin bu alətlərin istifadəsi geniş vüsət almamışdır. 24 Avropa ölkəsindən bildirilmişdir ki, bir və yaxud bir neçə təhsil alt sektorunda heç bir standart alət/şablon mövcud deyildir. 18 ölkədə ən azı bir alt sektorda standart alətlərin müəyyən formasının istifadəsinə rast gəlinməkdədir.

### *Portuqaliya*

Ümumi təhsildə tanınma prosedurlarının daxil edildiyi metodlar aşağıda qeyd edilən mərhələlərə riayət edir:

- Qəbul: Yerli Kvalifikasiya və PTT Mərkəzlərinin missiyası və "RVCC" barədə yaşlılara məlumat verilir, onlar siyahıya alınır.
- Yaşlı təhsilalanların səriştələrinin təyin edilməsi: spesifik sessiya və görüşlərdə "yaşlılar" üçün profillər hazırlanır; yaşlı təhsilalanın tərcümeyi-halı təhlil edilir; təhsilalanın motivasiyası, ehtiyacları və gözləntilərini müəyyən etmək üçün onunla fərdi və kollektiv şəkildə müsahibələr aparılır; müvafiq təhsil və təlim istiqamətini təyin etmək üçün yaşlı təhsilalana məlumat və dəstək verilir.
- Mövcud təlim yollarının, yaxud tanınma, təsdiqetmə və sertifikatlaşdırma istiqamətlərinin müəyyənləşdirilməsi: əvvəlki mərhələlərdə toplanmış məlumatlara uyğun olaraq, yaşlı təhsilalanlar təhsil və təlim formasına və yaxud "RVCC" sisteminə istiqamətləndirilirlər.
- Səriştələrin tanınması: yaşlı təhsilalanın bu vaxta kimi əldə etdiyi səriştələrin özü tərəfindən müəyyən edilməsi; "RVCC"-yə təklif edilən metodologiyaya müvafiq olaraq müəyyən fəaliyyət toplusu icra edilir, yaşlı təhsilalanın öz səriştələrini müəyyən etməsi üçün bir neçə qiymətləndirmə alətlərindən istifadə edilir; əvvəlki təlimi əks etdirən inşa (esse) hazırlanır.
- Səriştələrin təsdiq edilməsi: təyin edilmiş səriştələrin mövcud standartlarla müqayisə edilərək qiymətləndirilməsidir. Təsdiqetmə prosesinə təhsilalanın özünü qiymətləndirdiyi inşa (esse) yazması və istiqamətləndirmə, tanınma və təsdiqetmə üzrə subyektlərin, müxtəlif kvalifikasiya sahələrinə məxsus təhsilverənlər və təlimçilərin apardığı qiymətləndirmə daxildir. Kvalifikasiya və PTT Mərkəzlərinin koordinatoru tanınma ilə bağlı görüşün sədri kimi çıxış edir. Yaşlı təhsilalana tanınmanın nəticəsi olaraq 0-200 ballıq şkaladan qiymət təyin edilir.
- Sertifikatlaşdırma: sertifikatlaşdırma ilə bağlı münsiflər heyəti təşkil olunur və yaşlı təhsilalanlar yazılı, şifafi və yaxud praktiki imtahan, ya da bunların qarışıq forması ilə qiymətləndirilir. Nəticələr 0-200 ballıq sistemlə qiymətləndirilir. Bundan sonra isə yaşlı təhsilalan tam və ya yarı

sertifikatlaşma ilə bağlı sertifikat əldə edir. "RVCC" zamanı yaşlı təhsilalanların 50 saata kimi davam edən təhsil və təlim proqramı vasitəsilə qarşılanması mümkün olan təhsil və təlim ehtiyacları ola bilər; Kvalifikasiya və PTT Mərkəzləri bu təlim və təhsil proqramına görə cavabdehlik daşıyır. Əgər yaşlı təhsil alan yarımçıq sertifikat əldə edərsə, Kvalifikasiya və PTT Mərkəzləri şəxsi kvalifikasiya planı (tam kvalifikasiyaya nail olmaq üçün) hazırlamalı və yaşlı təhsilalanı müvafiq təhsil və təlim istiqamətinə doğru yönləndirməlidirlər.

*Finlandiya*

Səriştə Əsaslı Kvalifikasiyalar (DPTT)

Müraciət fazasında (identifikasiya) ərizəçi müsahibədə iştirak edir və namizədin tələblərindən asılı olaraq kvalifikasiya seçimləri və yaxud mümkün kvalifikasiya tələbləri müzakirə edilir. Özünü qiymətləndirmədən çox istifadə edilir. Finlandiyada SƏK-lər və qiymətləndirmə meyarlarının hamısını özündə ehtiva edən elektron alət (www.osaan.fi) mövcuddur. Namizəd səriştə testlərindən keçmək üçün tələb olunan səriştələrə malik olub-olmadığını yoxlamaq üçün özünü qiymətləndirmə apara bilər. Sözügedən kvalifikasiyanın təlim nəticələri üzrə malik olduğu səriştələrlə bağlı dəlilin istənilməsi də namizədə qoyulan tələblərdən biri ola bilər.

Namizəd səriştələri ilə bağlı etibarlı sənədli dəlilə malik olduğu hallarda (məsələn qeyri-formal təlim təmin edən yerlərdən) sənədlər qiymətləndiricilər qrupuna təqdim edilir. Onlar da bu dəlilin əsasında kvalifikasiyanın bir hissəsini və yaxud bütöv kvalifikasiyanı tanıya bilərlər. Heç bir sənədli dəlil olmadıqda, yaxud sənədlərin əsasında səriştələri qiymətləndirmək mümkün olmadıqda, səriştə üzrə sınaqlar keçirilir.

Əksər hallarda bu sınaqlar real iş mühitində həyata keçirilir. PTT müəssisəsi namizəd və işəgötürənlə əməkdaşlıq şəklində fərdi plan hazırlamış olacaqdır. Bu plan səriştələr üçün keçirilən sınağı necə həyata keçirmək və onun kvalifikasiya meyarları ilə necə uyğun gəldiyini müəyyən etmək kimi məsələlərə köklənir. Sınaqla bağlı vəziyyət işəgötürənin nümayəndəsi, işçinin nümayəndəsi və təhsil müəssisəsinin nümayəndəsi tərəfindən monitorinq edilir və qiymətləndirilir (üçtərəfli qiymətləndirmə). Qiymətləndirmə mütəxəssisləri nəticələri qiymətləndirmə vərəqində qeydə alırlar, bu vərəqdə təlim nəticələri və qiymətləndirmə meyarları təsvir olunur. Səriştələrlə bağlı sınaq aparıldıqdan sonra qiymətləndirmə mütəxəssisləri və namizəd sınaqla bağlı vəziyyəti nəzərdən keçirir və namizədə rəy bildirilir. Qiymətləndirmə ilə bağlı sənədləşdirilmiş qərarlar kvalifikasiya və sertifikatı təltif etmək səlahiyyəti daşıyan Kvalifikasiya Komissiyasına təqdim edilir.

*Hollandiya*

Kvalifikasiya ilə bağlı özünün əvvəlki təlim nəticələrini əks etdirmək istəyən namizəd ("təhsil istiqaməti"ndə olduğu kimi) portfeli (təqdimat) doldurmalıdır, belə ki burada o, malik olduğu təlim nəticələrinin seçdiyi kvalifikasiyadakı səriştələrlə necə uyğun gəldiyini nümayiş etdirir. Namizədin qiymətləndirilməsi aparılır və yazılı hesabatda seçilmiş kvalifikasiya üçün təyin edilən təlim nəticələri ilə uyğun gələn bütün təlim nəticələri bəyan edilir.  Bu hesabatla namizəd PTT məktəbi və yaxud universitetə qəbul komissiyasına (imtahan komissiyası) müraciət edə bilər. Buradan da aydın olur ki, ƏTT prosedurunun nəticəsi ilk növbədə namizəd üçün kvalifikasiya verən quruma gedə bilməsinə imkan verən rəsmi məsləhətdir. Yalnız kvalifikasiya verən qurum bu məsləhəti rəsmi olaraq azadolmaya çevirmək imkanına malikdir. Qurum təlim proqramında azadolmalarla bağlı qərar verə bilər. Bu azadolmaların əsasında (yarım və yaxud tam) kvalifikasiya əldə etmək mümkündür.

Adətən, hər bir situasiya və hər bir şəxs fərqli olduğuna görə ƏTT prosedurlarında metodlar qarışıq formada istifadə edilir. Aşağıdakı diaqramda təqdim edilən model "EVC" prosedurlarında istifadə edilə bilən metodlardan bəzi nümunələri əks etdirir:




*ƏTT Modeli*

İstinadlar


1. "Cedefop"; Avropa Komissiyası; İCF (2017). Avropanın qeyri-formal və informal təlimin tanınması üzrə inventarı - 2016-cı ildə yenilənmişdir. İcmal hesabat. Luksemburq: Publications Office.
2. "Cedefop"; Avropa Komissiyası; İCF (2016). Tanınma fəaliyyətinin maliyyələşdirilməsi. Avropanın qeyri-formal və informal təlimin tanınması üzrə inventarının 2016-cı ildə yenilənməsi üçün tematik hesabat. Luksemburq: Publications Office.
3. Camilla Alfsen, Ölkə üzrə Hesabat, Norveç (2016). Avropanın qeyri-formal və informal təlimin tanınması üzrə inventarının 2016-cı ildə yenilənməsi
4. Marin Johnson, Ölkə üzrə Hesabat, Estoniya (2016). Avropanın qeyri-formal və informal təlimin tanınması üzrə inventarının 2016-cı ildə yenilənməsi.
5. Ruud Duvekot, Ölkə üzrə Hesabat, Hollandiya (2016). Avropanın qeyri-formal və informal təlimin tanınması üzrə inventarının 2016-cı ildə yenilənməsi.
6. Paula Guimarães, Ölkə üzrə Hesabat, Portuqaliya (2016). Avropanın qeyri-formal və informal təlimin tanınması üzrə inventarının 2016-cı ildə yenilənməsi.
7. Anni Karttunen, Ölkə üzrə Hesabat, Finlandiya (2016). Avropanın qeyri-formal və informal təlimin tanınması üzrə inventarının 2016-cı ildə yenilənməsi.